# KİMYANIN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN ZEHNİ FƏALİYYƏTLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİNİN DİDAKTİK ƏSASLARI

**M.M.Abbasov[1], S.M.Abbaszadə[1], Ş.R.Əliyeva[1], P.Ş.Həsənova[2]**

*[1]AMEA Neft-Kimya Prosesləri İnstitutu,*
*[2] Azərbaycan Dövlət Pedoqoji Universiteti*

BMT tərəfindən XXI əsrin təhsil ili elan edilməsi bəşəriyyətin yarandığı dövrdən indiyə qədər mövcud olan problemlərin meydana çıxması və onların müvəffəqiyyətlə həll edilməsini tələb edir.

Mövcud yeni problemlər elmi-texniki tərəqqinin sürətlə inkişafı əsasında meydana çıxmışdır.Bu problemləri həll edə biləcək ixtisasçıları respublikamızın təhsil sistemi yetişdirməlidir. Hal hazıra kimi respublikamızın təhsil sisteminin qarşısında gənclərin təlimi, tərbiyəsi və inkişafı kimi üç əsas vəzifə durur. Təhsil sistemimizdə diqqət əsasən şagirdlərin zehni fəaliyyətinin inkişafına istiqamətlənmişdir.

Azərbaycan Respublikasının Təhsil qanununda təhsilin məzmununun formalaşmasında elmi biliklərlə yanaşı, praktik bilik və bacarıqların mənimsənilməsinin vacibliyinə diqqət yetirilir.

Şagirdin qazandığı adət , yiyələndiyi bilik və bacarığı həyata effektiv və müvəffəqiyyətlə tətbiq etmək qabiliyyətidir [1,2].

Şagirdlərin bilikləri müstəqil şəkildə əldə etməsinin əsasını müasir təlim texnologiyalarının təhsildə tətbiqi təşkil edir [2,3].

Müasir təlim texnologiyalarının tətbiqi nəticəsində şagird kimyanın tədqiqat obyekti və kimyəvi hadisənin mahiyyətini anlayır və onun yaradıcısı rolunda iştirak edir. Hal-hazırda elm və texnikanın çox sürətli inkişafı inkişafetdirici təlimi zamanın tələbi edir. Elmi yeniliklər hər onillikdə bir neçə dəfə artdığı halda, mövcud olan elmi biliklər sürətlə geri qalır, yüksək mükafatlara layiq görülmüş elmi tədqiqatlar isə ümumtəhsil məktəbləri üçün dərsliklərə gətirilir. Bunlar da tədrisin bütün mərhələlərində şagirdlərin zehni fəaliyyətinin önə çıxmasını tələb edir.

Kimyadan problemin həlli yollarının axtarılması, doğruluğunun təsdiq edilməsi və onun əsasında yeni biliklərin formalaşması şagirdlərin zehni fəaliyyətinin əsasını qoyur. Biliklərin dərk edilməsində müasir didaktikaya görə sistemlilik, aydınlıqla yanaşı yeni metodlar tətbiq edilməlidir. Yeni metodların reallaşdırılmasında zehni fəaliyyətin tərkib hissələri – anlamaq, tətbiq etməklə

həyata keçirmək, yaddasaxlama, qiymətləndirmə, yaradıcılıq bacarıqları formalaşır.

Təhsil sistemimizdə hal-hazırda şagirdlərin fərdi xüsusiyyətlərinin, zehni qabiliyyətlərinin müxtəlif olmasına görə onlar yüksək təhsil nəticələrinə nail ola bilmirlər. Çünki təhsildə humanist dəyərlərə əsas fikir verilir. Bunu nəzərə alaraq kimyanın tədrisində şagirdlərin zehni fəaliyyət prosesinin psixoloji əsasları işlənməlidir [7,8].

Təbiət elmləri (kimya, fizika, biologiya) şagirdlərin zehni qabiliyyətlərinin formalaşmasında mühüm rol oynayır. Şagirdlərin zehni fəaliyyətlərinin formalaşmasının əsasını təbiətdə baş verən hadisələrin (kimyəvi, fiziki, bioloji) dərk edilməsi təşkil edir [9].

Ümumtəhsil məktəblərinə aid tədris vasitələrinin təhlili (dərslik, proqram, müəllim üçün metodik vəsait) şagirdlərin zehni fəaliyyətlərinin formalaşmasında bir çox problemlərin olduğunu müəyyən edir. Bu problemlərdən biri anlayışlar, kimyəvi nəzəriyyələr, qanunauyğunluqlar, kimyəvi hadisələr və faktlar arasında əlaqənin nəzərə alınmaması ilə inkişafetdirici təlimin olmamasıdır.

Yaradıcı –tədqiqatçı problemli situasiya tipli məsələlərin həlli zamanı şagirdlərin zehni fəaliyyətlərinin formalaşmasına diqqət verilmir. Kimyanın tədrisinin vacib problemlərindən biri əsas kimyəvi anlayışlar əsasında maddələrin xassələrinin onların tərkibi və quruluşundan asılılığına diqqət yetirilməməsidir. Kimyanın tədrisinin aktual problemi yuxarıda sadalananların həllinin optimal variantının müəyyən edilməsidir [4].

Şagirdlərin zehni fəaliyyətilə aldıqları bilik arasında əlaqə əsasında inkişafetdirici, yaradıcı təlimin tətbiqində metodik yolların (üsulların) müəyyənləşdirilməsi kimyanın tədrisində ən vacib məsələlərdən biridir.

Kimyanın tədrisində şagird şəxsiyyətinin formalaşması müasir təlim texnologiyaların tətbiqi ilə həyata keçirilir. Kimyanın şagirdin həyat fəaliyyətində rolu, onun ətraf mühitlə bağlılığı daha çox əhəmiyyətə malikdir. Bu və digər problemlər interaktiv təlimlə həyata keçirilir. Bu cür dərslərdə şagirdlərin zehni fəaliyyətinin inkişaf etdirilməsi üçün ümumtəhsil məktəblərində çalışan müəllimlərin pedaqoji təcrübələrindən istifadə edilməlidir.

Kimyanın tədrisinin əsas məqsədi ümumtəhsil məktəblərində şagirdlərin bilikləri effektiv yollarla əldə etməsilə zehni fəaliyyətini inkişaf etdirməsidir. Şagirdlərin zehni fəaliyyətinin effektiv inkişaf etdirilməsi müasir təlim texnologiyalarını tətbiq etməklə biliklərin əldə edilməsi prosesində həyata keçirilir.

Şagirdlərin təhsili və zehni fəaliyyəti arasında qarşılıqlı bağlılıq müasir didaktikanın əsas prinsiplərindən biridir. Təbiət (maddi aləm) şagirdlərin zehni fəaliyyətinin predmetidir. Şagird onun qarşısına çıxan problemi həll etmək üçün ilk öncə həmin problemi təhlil edir, əldə etdiyi biliklərdən istifadə etməli olur.

Problemi həll etmək üçün ona lazım olan məlumatları aşkarlayır və onları müxtəlif mənbələrdən əldə edir. Problemi məntiqi ardıcıllıqla həll etdikdə onun üçün yeni nəticələrə nail olur, bu da ona sevinc gətirir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il, 24 oktyabr tarixli sərəncamı.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün kimya fənn kurikulumu // Kurikulum, 2010, № 2, s.133-143.
3. Совершенствование содержания в школе. Под ред. И. Д. Зверева М. П. Кашина. М: Педагогика, 1985, с. 271
4. В.П. Гаркунов. Методические вопросы научного объяснения в процессе преподавания химии // Жур. ВХО им. Д.И. Менделеева, 1975, № 5, с. 525-530

*М.М.Аббасов, С.М.Аббасзаде, Ш.Р.Алиева, П.Ш.Гасанова*

**Дидактические основы развития умственной деятельности учеников при обучении химии**

**РЕЗЮМЕ**

В статье объясняются основные принципы современной дидактики между образованием учеников и их умственной деятельностью.

*M.M.Abbasov, S.M.Abbaszada, Sh.R.Aliyeva, P.Sh.Hasanova*

**Didactic bases for the development of students' mental activities in teaching chemistry**

**SUMMARY**

The article deals on education, mental activity of students and basic principles of didactics among them.

**Açar sözlər:** şagird şəxsiyyəti, zehni fəaliyyət, didaktika, inkişafetdirici təlim.

**Ключевые слова:** личность ученика, умственная деятельность, дидактика, развивающие обучение.

**Key words:** student personality, mental activity, didactics, developmental training.